# Bələdiyyə seçkilərinə hazırlıq uğurla davam edir

***Mərkəzi Seçki Komissiyasının (MSK) qərarı ilə dekabrın 23-nə təyin edilmiş növbəti bələdiyyə seçkilərinin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün zəruri tədbirlər görülür. Seçki prosesinin mühüm mərhələləri olan seçici siyahılarının dəqiqləşdirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, seçicilər də daxil olmaqla, bütün seçki subyektlərinin maarifləndirilməsi, bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan seçkiqabağı təşviqat imkanının yaradılması, müşahidəçilər və kütləvi informasiya vasitələri nümayəndələrinin sərbəst fəaliyyəti üçün tam azad və maneəsiz şəraitin yaradılması ilə bağlı addımlar MSK-nın hazırlayıb təsdiq etdiyi Təqvim Planına əsasən atılır.***



Bütövlükdə seçkilərin milli qanunvericiliyə və müasir beynəlxalq normalara uyğun yüksək səviyyədə hazırlanıb keçirilməsində ardıcıl, sistemli və keyfiyyətlə reallaşdırılan çoxsaylı genişmiqyaslı layihələr olduqca mühüm əhəmiyyətə malikdir.

Vətəndaşlarımızın seçmək və seçilmək kimi əsas konstitusion hüquqlarının təmin olunmasında seçici siyahılarının mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, MSK Seçki Məcəlləsinin tələblərinə əsasən hər il olduğu kimi 2019-cu ildə də seçici siyahılarının dəqiqləşdirilməsinə ciddi diqqət yetirib. Yanvar ayının əvvəllərindən may ayının sonunadək həyata keçirilən kifayət qədər böyük miqyaslı və əhatəli işə ölkə üzrə aşağı seçki komissiyalarının otuz mindən artıq üzvü cəlb olunub və bütün proses boyu həm aidiyyəti dövlət orqanları, həm də yerli qurumlarla sıx əməkdaşlıq edilib. Siyahılar dəqiqləşdirildikdən sonra keyfiyyətlə tərtib və çap edilərək qanunvericilikdə nəzərdə tutulan müddətdə aşağı seçki komissiyalarına çatdırılıb, seçki məntəqələrində asılmaqla, eləcə də MSK-nın rəsmi internet səhifəsində yerləşdirilməklə seçicilərə və geniş ictimaiyyətə təqdim olunub.

Siyahıların dəqiqləşdirilməsi prosesində seçicilərin aktiv iştirakı və marağı, habelə MSK-nın 115 nömrəli qaynar xətti və internet səhifəsindəki onlayn müraciət imkanı məlumatların yoxlanılması və dəqiqləşdirilməsinə şərait yaradıb. Bununla bərabər müasir texnologiyalardan və texniki imkanları daha da təkmilləşdirilən xüsusi proqram təminatlarından geniş istifadə olunması seçici siyahılarının effektiv hazırlanması, yüksək standartlara uyğun tərtib və çapı üçün görülən işlərin effektivliyini daha da yüksəldib.

Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, bələdiyyə seçkiləri ilə əlaqədar hazırda da seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı mütəmadi iş gedir və bu proses səsvermə gününə 25 gün qalanadək davam edir. Dəqiqləşdirmə prosesinə seçicilərin fəal cəlb olunması və görülən işlərin keyfiyyətinin daha da yüksəldilməsi məqsədi ilə müxtəlif vasitələrlə intensiv təşviqat kampaniyası gerçəkləşdirilib və bu istiqamətdə KİV və sosial şəbəkələrin imkanlarından geniş istifadə olunub. Belə ki, adların seçici siyahılarında yoxlanılması ilə bağlı MSK tərəfindən hazırlanan geniş tirajlı böyük ölçülü məlumatlandırma plakatları bütün ölkə ərazisinə yayılaraq əhalinin xüsusilə sıx məskunlaşdığı yerlərdə və çoxsaylı məlumat lövhələrində yerləşdirilib. Seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı MSK-nın hazırladığı videoçarx da komissiyanın rəsmi internet səhifəsində və sosial şəbəkələrdə yerləşdirilməklə, eləcə də televiziya və radio kanalları vasitəsilə yayımlanmaqla mütəmadi şəkildə nümayiş etdirilib.

Bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini nəzərə alaraq, hələ seçkilər təyin olunmazdan xeyli əvvəl MSK tərəfindən dairə və məntəqə seçki komissiyalarının seçkilərə hazırlığının monitorinqi aparılıb. Onların təchizatı istiqamətində bütün lazımi addımlar atılıb və aşağı seçki komissiyaları zəruri avadanlıq və materiallarla təmin olunaraq seçki gününə tam hazır vəziyyətə gətirilib.

Seçkilərin azad, ədalətli və şəffaf keçirilməsində, eləcə də seçki iştirakçılarının maarifləndirilməsində və fəaliyyətlərinin təkmilləşdirilməsində hüquqi çərçivə və təkmil normativ-hüquqi baza da əhəmiyyətli rol oynayır. Aşağı seçki komissiyaları üzvlərinin və digər seçki subyektlərinin maarifləndirilməsini həyata keçirmək, seçki qanunvericiliyinin müddəalarının peşəkarcasına icrasını, seçkilərdə iştirak üzrə hüquqi biliklərin artırılmasını və gücləndirilməsini təmin etmək üçün MSK təlimat, izah və qaydalar şəklində normativ xarakterli 48 sənəd hazırlayıb. Seçkilərlə bağlı qanunvericilikdə nəzərdə tutulan çoxsaylı müxtəlif prosedurların ardıcıl, səmərəli və keyfiyyətlə gerçəkləşdirilməsi, seçki prosesi iştirakçılarına metodiki kömək göstərilməsi, o cümlədən seçkilərin yüksək səviyyədə hazırlanıb keçirilməsi məqsədi daşıyan bu sənədlər MSK üzvləri tərəfindən baxıldıqdan və geniş müzakirə olunduqdan sonra komissiyanın iclaslarında qəbul edilib, maraqlı şəxslərin əldə edə bilmələri üçün 16 toplu şəklində nəşr etdirilərək aşağı seçki komissiyalarına paylanılıb, həmçinin Azərbaycan və ingilis dillərində MSK-nın rəsmi internet səhifəsində yerləşdirilib.

MSK seçkilərin demokratiya və aşkarlıq şəraitində keçirilməsi üçün çoxsaylı nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən zəngin seçki ənənəsi formalaşmış ölkələrin ali seçki qurumları ilə yaxından əməkdaşlıq edir. Mütəmadi şəkildə bu əməkdaşlıq çərçivəsində müxtəlif layihələr gerçəkləşdirilir, görüşlər keçirilir, mümkün tərəfdaşlıq imkanları müzakirə edilir, qarşılıqlı təcrübə və fikir mübadiləsi aparılır.

Ölkəmizdə keçirilən seçkilər daim yerli və beynəlxalq ictimaiyyətin maraq dairəsində olaraq, çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin iştirakı ilə xarakterizə olunub. Bələdiyyə seçkilərində də aşkarlığın və şəffaflığın daha geniş təmin olunması üçün bütün digər vasitələrlə yanaşı, MSK tərəfindən Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinə və 15 ölkənin ali seçki qurumlarına dəvətnamə göndərilib.

Bələdiyyə seçkilərində iştirakçılara bərabər şərtlər və eyni imkanlar yaradılması, seçicilərin öz hüquqlarından tam maneəsiz və sərbəst istifadə etmələri və beləliklə seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün geniş iş aparılır və bütün addımlar atılır. Seçkilərin yüksək səviyyədə təşkil olunub keçirilməsində maarifləndirmənin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, MSK çoxsaylı irimiqyaslı maarifləndirmə layihələri gerçəkləşdirib. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" bütün maarifləndirmə layihələrinin həyata keçirilməsində MSK üçün istiqamətverici əsas rolunu oynayır.

Dövlət başçısının həmin sərəncamına əsasən ölkənin ali dövlət qurumlarının rəhbər şəxslərinin də iştirakı ilə dairə seçki komissiyalarının sədrləri üçün geniş müşavirə və aşağı seçki komissiyalarının üzvləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar, bələdiyyə üzvlüyünə namizədlərin qeydiyyatı prosedurlarına həsr olunan tədbirlər, seçkilərlə bağlı müraciətlərin araşdırılmasına həsr olunan regional seminarlar, seçki praktikamızda ilk dəfə Ali Məhkəmə və Apelyasiya məhkəmələri ilə birgə seçki mübahisələrinin həlli ilə bağlı müraciətlərin məhkəmə qaydasında araşdırılmasına həsr olunan regional seminar-müşavirələr, əyani vəsaitlərdən istifadə edilməklə praktiki məşğələlərə geniş yer verilən treninqlər bu qəbildən olan layihələrin bir qismidir. Qeyd etmək lazımdır ki, MSK-nın maarifləndirmə layihələrinin seçki gününədək davam etməsi və müxtəlif statuslu digər seçki iştirakçılarını da əhatə etməsi nəzərdə tutulur.

Yuxarıda sadalananlarla yanaşı, seçki subyektlərinin maarifləndirilməsi, onlara metodiki yardım göstərilməsi və seçki prosesindəki fəaliyyətlərinin sadələşdirilməsi məqsədi ilə aşağı seçki komissiyalarının üzvləri, namizədlər, müşahidəçilər, polis əməkdaşları və KİV üçün çoxsaylı yaddaş kitabçaları və digər maarifləndirmə materialları hazırlanaraq aidiyyəti üzrə çatdırılıb, həmçinin MSK-nın internet səhifəsində yerləşdirilərək geniş ictimaiyyətə təqdim olunub.

Qarşıdan gələn bələdiyyə seçkiləri ilə bağlı seçicilərin də maarifləndirilməsi MSK-nın daim diqqət mərkəzində olub və bu istiqamətdə intensiv şəkildə bir sıra layihələr gerçəkləşdirilib. Seçiciləri səsvermədə aktiv iştiraka səsləyən, onları öz hüquqlarından sərbəst istifadə etməyə dəvət edən, səsvermə proseduru, çağırış xarakterli və s. müxtəlif mövzuları əhatə edən geniş tirajlı məlumatlandırma plakatları əhalinin xüsusilə sıx məskunlaşdığı və asanlıqla görünə bilən yerlərdə asılıb. Bütün bunlarla yanaşı, Seçki Məcəlləsinin tələblərinə əsasən seçicilərin səs verəcəkləri seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı barədə məlumat verilməsi məqsədilə əvvəlki ənənəni davam etdirərək seçicilərə çatdırılan bildirişdə, həmçinin səsvermə prosesində istifadə olunan şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, səsvermə qaydası və digər aidiyyəti prosedurlarla bağlı maarifləndirmə xarakterli məlumatları özündə əks etdirən 5020287 bildiriş qanunvericilikdə nəzərdə tutulan müddətdə və qaydada seçicilərin sayına uyğun çap edilib və səsvermə gününə 7 gün qalanadək seçicilərə paylanılması nəzərdə tutulub. MSK-nın seçici məlumatlandırma proqramı çərçivəsində hazırlanmaqda olan videoçarx da seçicilərin səsvermə prosedurları barədə aydın və ətraflı məlumatlandırılmasına imkan yaradacaq.

Komissiyanın həyata keçirdiyi maarifləndirmə proqramının bir qolu da ilk dəfə səs verən gənc seçiciləri əhatə edir. Bələdiyyə seçkilərinə gənclərin daha fəal cəlb olunması və onların öz innovativ potensiallarından geniş istifadə edə bilmələri üçün hərtərəfli şərait yaradılıb, habelə gənclərin maarifləndirilməsi və məlumatlandırılması məqsədi ilə bir sıra layihələr həyata keçirilməsinə başlanılıb. Gənclərin seçkilərdə aktiv iştiraka dəvət olunması məqsədi ilə MSK tərəfindən hazırlanan videoçarx televiziya və radio kanalları vasitəsilə mütəmadi şəkildə yayımlanmaqla bütün ölkə elektoratı ilə yanaşı, bələdiyyə seçkilərinə ilk dəfə qatılan 87054 gəncin seçkilərlə bağlı məlumatlandırılmasında böyük əhəmiyyət daşıyır. Sözügedən videoçarx, həmçinin MSK-nın internet səhifəsi və sosial şəbəkələrdə də yerləşdirilərək nümayiş etdirilir. Gənclərə yönəlmiş məhz bu kimi addımlar namizəd qismində bələdiyyə seçkilərinə qatılanların təxminən 27 faizinin gənclər olmasına rəvac verib.

MSK-nın seçici maarifləndirmə proqramı çərçivəsində gerçəkləşdirdiyi tədbirlər sırasında Şərqdə ilk dəfə seçki hüququ qazanan Azərbaycan qadınlarının bələdiyyə seçkilərində fəallığının daha da yüksəldilməsinə yönələn layihələr də var. MSK-nın televiziya və radio kanallarında nümayiş etdirilməklə qadınları fəallıqla seçkilərə qatılmağa səsləyən videoçarxı ilə yanaşı, həm də KİV-də öz əksini tapan çoxsaylı məlumatlar bələdiyyə seçkilərində qadınların fəallığının artırılmasına öz töhfəsini verir. Sevindirici haldır ki, bələdiyyə üzvlüyünə indiyədək qeydə alınmış namizədlərin təxminən 30 faizini qadınlar təşkil edir.

Bələdiyyə seçkilərinin cəmiyyət üçün yerli əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, MSK seçkilər təyin olunduqdan sonra KİV-lə əlaqələrini daha da intensivləşdirib. MSK-nın iclaslarının vaxtı barədə KİV nümayəndələri əvvəlcədən məlumatlandırılır və onlar mütəmadi qaydada MSK-nın tədbirlərinə dəvət olunaraq lazımi informasiya əldə edirlər. Ölkə ictimaiyyətinin seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı məlumatlandırılması üçün bələdiyyə seçkiləri təyin olunduğu gündən MSK tərəfindən ardıcıl şəkildə müxtəlif aktual mövzuları əhatə edən çoxsaylı brifinqlər keçirilir, seçkilərlə bağlı reallaşdırılan bütün layihələr barədə respublikada fəaliyyət göstərən kütləvi informasiya vasitələrinə mətbuat bülletenləri və məlumatlar çatdırılır.

İndiyədək komissiyanın iclasları və təşkil edilən tədbirlər barədə mətbuatda yüzlərlə müxtəlif xarakterli material, eyni zamanda MSK sədrinin, Komissiya üzvləri və Katibliyin əməkdaşlarının açıqlamaları dərc olunub.

Seçicilər də daxil olmaqla bütün ölkə elektoratının, eləcə də seçki subyektlərinin məlumatlandırılmasında MSK-nın rəsmi internet səhifəsi (www.msk.gov.az, www.cec.gov.az, www.infocenter.gov.az) olduqca əhəmiyyətli rol oynamaqla, seçki iştirakçıları üçün etibarlı informasiya mənbəyinə çevrilib. Seçkilərlə bağlı bütün məlumatlar internet səhifəsində yerləşdirilir və seçki prosesi boyunca istifadəçilər internet səhifəsinə daxil olaraq istədikləri müxtəlif məlumatları əldə edirlər. Komissiyanın sosial şəbəkələrdəki səhifələri də seçki kampaniyası boyunca istifadəçilərin ixtiyarında olur və məlumatlar mütəmadi qaydada bu səhifələrdə də yerləşdirilir. Seçici siyahılarının dəqiqləşdirilməsi dövrü də daxil olmaqla, bu müddət ərzində MSK-nın internet səhifəsinə 993000-dən artıq istifadəçi baxışının olması, səhifənin seçki prosesi iştirakçılarının məlumatlandırılması və şəffaflığın təmin olunmasındakı əhəmiyyətli roluna nümunədir.

Seçkilərə start verildiyi gündən bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi kampaniyası başlanıb və sevindiricidir ki, bu mərhələ heç bir xoşagəlməz hal baş vermədən şəffaf mühitdə müxtəlif siyasi qüvvələrin fəallığı ilə diqqət çəkir. Öz namizədləri ilə seçkilərə qatılmaq niyyətində olan 13 siyasi partiya tərəfindən səlahiyyətli nümayəndələrin qeydə alınması üçün MSK-ya ünvanlanan müraciətlərə müsbət reaksiya verilərək, siyasi partiyaların təqdim etdiyi bütün şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Dairə seçki komissiyalarına siyasi partiyalar tərəfindən, öz təşəbbüsü ilə və seçicilərin təşəbbüs qrupları tərəfindən olunan müraciətlərə qanunvericilikdə nəzərdə tutulmuş vaxtda və qaydada baxılaraq 42769 nəfərin namizədliyi təsdiq olunub. Müraciət edənlər arasında öz təşəbbüsləri ilə seçkilərə qatılan 35 siyasi partiyaya mənsub vətəndaşların olması da bələdiyyə seçkilərinə ölkə ictimaiyyətinin müxtəlif siyasi baxışlı kəsimlərinin marağının aşkar göstəricisidir.

Seçkilərdə iştirak edən bütün namizədlərə imzatoplama kampaniyasına başlamaq üçün vaxtında və lazımi sayda imza vərəqələri verilib, onlar sərbəst şəkildə imzatoplama kampaniyası həyata keçiriblər. Qeydiyyat üçün tələb olunan sayda seçici imzaları toplanan imza vərəqələrini və digər sənədləri dairə seçki komissiyalarına təqdim edən 41872 nəfərin namizədliyi bu vaxtadək qeydə alınıb ki, bu da yerli özünüidarənin formalaşmasında ölkə elektoratına geniş seçim imkanı yaradır.

Namizədlərin sənədlərinin yoxlanılması prosesi maraqlanan bütün şəxslər və ictimaiyyət üçün tam açıq, şəffaf şəkildə aparılır. Belə ki, siyasi partiyaların, bələdiyyə üzvlüyünə namizədlərin səlahiyyətli nümayəndələri, müşahidəçilər və kütləvi informasiya vasitələrinin nümayəndələri istənilən an proseslə tanışlıq imkanına malik olaraq onu birbaşa izləyirlər.

Bələdiyyə seçkilərinin mühüm hissəsi olan seçkiqabağı təşviqat mərhələsində səlahiyyətli subyektlərin öz təşviqatlarını aparmaları üçün MSK başda olmaqla aşağı seçki komissiyaları və digər əlaqədar qurumlar tərəfindən öz səlahiyyətləri daxilində bütün tədbirlər görülür, azad, ədalətli və şəffaf seçkilərin keçirilməsi üçün ölkə ərazisində hərtərəfli və bərabər seçkiqabağı təşviqat mühiti yaradılır. Seçkiqabağı təşviqatın mühüm tərkib hissələrindən biri olan namizədlərin seçicilərlə görüşləri və yığıncaqları üçün Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq respublikadakı yaşayış məntəqələrində kifayət sayda açıq və qapalı görüş yerləri ayrılır. Onlar daimi görüş yerləri ilə yanaşı, Seçki Məcəlləsi ilə müəyyən edilmiş digər imkanlardan da istifadə edərək öz seçicilərinə sərbəst şəkildə seçkiqabağı platformalarını çatdıracaqlar.

Artıq seçki qanunvericiliyinin tələbinə əsasən, seçkiqabağı təşviqat kampaniyası dövründə plakatların və digər çap materiallarının yerləşdirilməsi üçün müxtəlif uyğun yerlər ayrılmaqla yanaşı, məhz bu məqsədlə əlavə vasitə kimi hər seçki məntəqəsinin ərazisində iki ədəd olmaqla, ümumilikdə on minə yaxın böyük ölçülü məlumat lövhəsi quraşdırılıb. Təşviqat subyektlərinə daha geniş imkanların yaradılması üçün Seçki Məcəlləsində nəzərdə tutulan müddətdə və qaydada müxtəlif layihələrin gerçəkləşdirilməsi istiqamətində işlər mütəmadi şəkildə davam edir.

Ölkəmizdə keçirilən seçkilərdə daim müxtəlif aşkarlıq institutlarının, yəni müşahidəçilərin və kütləvi informasiya vasitələrinin yaxından iştirakına tam şərait yaradılır, qaynar xətt, internet resursları və seçki günü prosesləri birbaşa izləməyə imkan verən veb-kameralardan geniş istifadə olunur. Seçki gününə hələ xeyli müddət qalmasına baxmayaraq, indiyədək artıq müxtəlif siyasi partiyaları, qeyri-hökumət təşkilatlarını, müstəqil namizədləri təmsil edən və öz təşəbbüsləri ilə seçkilərə qatılan 8489 yerli müşahidəçi MSK və dairə seçki komissiyalarında akkreditasiyadan keçib.

Seçkilərin yerli əhəmiyyətini, on minlərlə namizədin prosesdə iştirakını və ölkə ictimaiyyətinin marağını nəzərə alaraq, müşahidəçilərin sayının yaxın günlərdə daha sürətlə artacağını əminliklə söyləmək olar.

Məmnuniyyətlə vurğulamaq lazımdır ki, seçki praktikasında Azərbaycan təcrübəsi kimi tanınan və şəffaflığın daha yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, 2008-ci ildən bəri ölkəmizdə keçirilən bütün seçkilərdə uğurla gerçəkləşdirilən veb-kamera təcrübəsinin builki bələdiyyə seçkilərində də tətbiq edilməsi nəzərdə tutulur. İşğal olunmuş ərazilər istisna olmaqla, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində (seçki məntəqələrinin təqribən 20 faizində) quraşdırılan bu veb-kameralar seçki günü internet istifadəçilərinə istər ölkə daxilindən, istərsə xaricdən MSK-nın internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyatdan keçmədən səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsi proseslərini arasıkəsilmədən əvvəldən axıradək canlı müşahidə etmək imkanı verir.

Onu da qeyd edək ki, bələdiyyə seçkilərinin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün zəruri şərait yaradılıb və seçki məntəqələri səsvermə gününə tam hazır vəziyyətə gətirilib. İnanırıq ki, seçicilərimiz onlar üçün yaradılan bu qədər geniş imkanlardan səmərəli istifadə edəcək və seçki günü fəallıqla seçki məntəqələrinə gələrək azad və sərbəst şəkildə öz konstitusion hüquqlarını reallaşdıracaqlar.

**Rövzət QASIMOV,**
**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini**